# Muzeyimizin dünəni və bu günü

***R**ahib Məmmədov adına Ağdam Döyüş Şöhrəti muzeyi 1990-cı ildə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən təsis edilmişdir.*

Muzey Ağdam rayonunun işğal altında olmayan Mahrızlı kəndində yerləşir. 4 ekspozisiya zalından və 21 sot həyətyanı sahədən ibarətdir. Muzeyimizin təsis olunduğu ilk aylardan geniş fəaliyyət proqramı qəbul etmişik.

Yaratdığımız dostluq əlaqələri vasitəsilə 1990-cı ilin sentyabr ayında Gürcüstan Respublikasında, 1991-ci ilin avqust-sentyabr aylarında Ukrayna Respublikasında, 1992-ci ilin sentyabr ayında Ukraynanın İvanovo-Frankovsk şəhərində sərgilər keçirilmiş, "20 Yanvar-Qanlı Şənbə", "Xocalı soyqırımı - erməni vəhşiliyi" video-kasetlərini, erməni vandalizminə dair 55 broşuranı nümayiş etdirib şərhini vermişik.

1992-ci ilin sentyabr ayında yaratdığımız əlaqələr vasitəsilə Ukrayna respublikasından bir təyyarə yükü (mlrd. manatlıq) hərbi-tibbi ləvazimatın təmənnasız olaraq Azərbaycan Respublikası MN-nin hərbi-tibbi idarəsinin anbarına təhvil verilməsini təşkil etmişik.






Muzeyin iki əməkdaşı - direktor İ.Əsədov və muzey işçisi F.Mehdiyev könüllü olaraq erməni qəsbkarlarına qarşı döyüşmüş, sağ ayağını itirərək əlil olmuşdur.

Atəşkəsdən sonra muzeyimizin nəzdində "Vətən Fədailəri - Qarabağ Şəhidləri" guşəsi yaradıb yaralı əsgərlərimizin bədənlərindən çıxarılmış və üzərində qurumuş qan ləkələri indiyədək qalmaqda olan qəlpə və eksponatları, "ünvanlı gilizlər"i, hərbi və mülki əşya -

ları nümayiş etdiririk. Müxtəlif əlamətdar, tarixi günlər münasibətilə indiyədək 25000-dən artıq əsgər və zabit heyəti qarşısında çıxışlarımız olmuş, bu xidmətlərə görə dəfələrlə korpus komandanlığı, mədəniyyət və turizm nazirliyi, habelə rayon mədəniyyət və turizm şöbəsi tərəfindən "pul" mükafatı ilə qiymətləndirilmişik. Rayon mətbuatında müntəzəm olaraq müxtəlif hərbi-tarixi mövzularda çıxışlarımız olur. İllik tədbirlər planına uyğun olaraq şəhid ailələri ilə görüşlər keçiririk.

Bu baxımdan Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun ailəsi ilə görüş və qəhrəmanın anası tərəfindən muzeyimizə bağışlanan eksponat (idman aləti) bizim üçün daha maraqlı olmuş və bu hədiyyə muzeyimizin təkrarolunmaz eksponatları sırasına daxil olaraq nümayiş etdirilir.

Muzeyimizin orta məktəblə bir ərazidə yerləşməsi tədbirlərin hazırlanması və keçirilməsi sahəsində potensial imkanlarımızı yetərincə təmin edir. 5 iri həcmli tədbirləri keçirməyimiz buna bir daha sübutdur. Gerçəkləşdirilən tədbirlərin foto-şəkilləri, video-kasetləri və ssenariləri tərəfimizdən sənədləşdirilərək saxlanılır.

Martın 19-da ümummilli bayramımız olan Novruz bayramını xüsusilə geniş miqyaslı keçirdik. Bütün bunlarla yanaşı, biz muzey əməkdaşları kimi fondumuzun zənginləşdirilməsi qayğısına da qalırıq.

**1990-cı ildən indiyədək eksponatlarımızın sayını artıraraq 500-dən 1796-ya çatdırmışıq. Ancaq muzeyimizin binasının 22 ildir təmirsiz olması, müasir muzey fəaliyyətinin tələblərinə cavab verməməsi, keçmiş sovet layihəsi əsasında tərtib olunması iş qabiliyyətimizə təsir edən və potensial imkanlarımızı həyata keçirməyə mane olan əsas amildir.**

**• İntiqam ƏSƏDOV,**
***muzeyin direktoru***